# TİKAN əkən adam

## Məsnəvidən hekayələr

***Sən də hər pis xasiyyətini bir tikan bil. O tikanlar neçə dəfə səni zədələyib, o pis xasiyyətinə görə dəfələrlə pərişan hala düşmüsən, xəstəliyə düçar olmusan. Lakin duyğusuz və hissiyyatsız hala düşdüyündən xəstəliyinin səbəbini anlamırsan. Pis xasiyyətinə görə başqalarını da narahat etdiyini, tikan kimi yaraladığını bilmirsənmi?..***



*Tərcümə edən:*
**MUXTAR CƏFƏRLİ**

Bir adam yol kənarına tikan əkmişdi. Zaman keçdikcə bu tikanlar böyüyüb ətrafa o qədər yayıldı ki, artıq yoldan keçənləri narahat etməyə başladı. İnsanlar dəfələrlə "bu tikanları çıxart" desələr də, həmin adam onların sözlərinə əhəmiyyət vermirdi. Tikanlar da gün-gündən daha çox yayılır, yoldan keçən insanların əl-ayağına batır, ilişib paltarlarını cırırdı.

Nəhayət, camaat ondan valiyə şikayət edir. Vali də həmin adamı çağırıb tapşırır ki, tikanları çıxartsın.

Tikan əkən adam öz-özünə deyir: "Yaxşı, bir-iki günə çıxararam". Valinin sözünü bir qulağından alıb o biri qulağından verir. "Bugün-sabah" deyə-deyə xeyli müddət keçir. Bu müddət ərzində tikanlar daha da dərin kök atır, qalın qolları ilə az qala yolu tamamilə bağlayır. Artıq tikanlar həm başqaları, həm də onun özü üçün ciddi narahatlıq törədir.

Bir gün vali eşidir ki, adam tikanları çıxarmayıb. Yanına çağırıb səbirlə ona deyir:

– Ey vədini yerinə yetirməyən, sözünə sadiq qalmayan adam! Bəri gəl, sözümə qulaq as, işini yerinə yetir.

Tikan əkən adam valinin həlimliyindən cürətlənib deyir:

– Narahat olma, bir-iki günə tikanları çıxararam.

Vali sözlərinin kişiyə təsir etmədiyini görüb ona bu hikmətli sözləri söyləyir:

– Tələs, işi yubatma, sözünü yerinə yetir. Sən "bu gün-sabah edərəm" deyirsən, unutma ki, gün keçdikcə o tikanların kökü daha da dərinləşir. Sən isə gün-gündən yaşlanıb güc-qüvvətini itirirsən. Tələs, vaxt itirmə.

Tikan əkən adam bu sözlərdən sonra ağlını başına yığıb əkdiyi tikanları çıxartmaq istəyir, amma nə qədər əlləşirsə, heç cür bacarmır. Tikanlar o qədər kök atmışdı ki, onları çıxartmağa gücü çatmır...

Ey bu sözləri oxuyan! Bil ki, pis xasiyyətlər, zərərli vərdişlər də belədir. Vaxtında tərk edilməsə, tikan kimi kök salar və onları içindən çıxarıb ata bilməzsən.

Sən də hər pis xasiyyətini bir tikan bil. O tikanlar neçə dəfə səni zədələyib, o pis xasiyyətinə görə dəfələrlə pərişan hala düşmüsən, xəstəliyə düçar olmusan. Lakin duyğusuz və hissiyyatsız hala düşdüyündən xəstəliyinin səbəbini anlamırsan. Pis xasiyyətinə görə başqalarını da narahat etdiyini, tikan kimi yaraladığını bilmirsənmi? Öz yarandan da mı xəbərin yoxdur? Bu halınla sən həm özünə, həm də başqalarına dərdsən, əzabsan...

Ya baltanı əlinə götür, mərdi-mərdanə Həzrət Əli (ə) kimi Xeybər qalasının qapısını qopar, nəfsinlə savaş. Həzrət Əlinin (ə) Xeybər qalasında göstərdiyi igidliyi sən də pis xasiyyətinə göstər: nəfs qalasına hücum edib ona qələbə çal.

Yaxud da tikanı gül fidanına çatdır: pis xasiyyətinin atəşini Dostun nuruna qovuşdur. Beləliklə də Dostun nuru səndəki şəhvət atəşini söndürsün. Onunla qovuşmaq sənin tikanlarını gül bağçasına çevirsin.